№: 02 2025
https://doi.org/10.64400/nduееj.044
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# AZƏRBAYCAN RESPUBLİKASINDA ƏHALİNİN SOSİAL MÜDAFİƏSİNİN TƏŞKİLİNİN AKTUAL-STRATEJİ MƏSƏLƏLƏRİ

**Emin Əlirzayev**

https://orcid.org/0000-0001-8622-6905
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı, Azərbaycan.
Yazışılan müəllif: alirzayev@gmail.com, +994 3373355

## XÜLASƏ

**Tədqiqatın məqsədi** – Azərbaycan Respublikasında sosial müdafiənin təkmilləşdirilməsi ilə bağlı aktual problem istiqamətlərinin strateji prizmadan elmi təhlili şəraitində sosial müdafiənin əsasını təşkil edən spesifik sahələr üzrə aktual aspektlər və meyarlar müstəvisində təkmilləşmə üçün həlledici məsələlərin elmi əsaslandırılmış şəkildə əks etdirilməsidir.
**Tədqiqatın metodologiyası** – müvafiq milli normativ baza, sahə üzrə beynəlxalq hesabatlılıq göstəriciləri və məlumatları, beynəxalq səviyyədə nəzəri-elmi baxışlar və rəsmi statistik göstəricilər üzərində kəmiyyət metodlarının da zəruri tətbiqilə ümumi elmi təhlil metodlarından istifadə olunmasına əsaslanır.
**Tədqiqatın nəticələri** – müasir şəraitdə Azərbaycanda sosial müdafiə sisteminin əsas mexanizmləri üzərində təkmilləşdirilmələr aparılması zəruri hesab edilən istiqamətləri əks etdirməkdədir.
**Tədqiqatın tətbiqi əhəmiyyəti** – tədqiqat çərçivəsində gəlinən nəticələrin Azərbaycanda sosial müdafiə islahatlarının növbəti perspektivdə ən vacib istiqamətlərdə təkmilləşdirilməsinin aparılması üçün aktual idarəetmə konturlarını nəzərdə tutmasındadır.
**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – Azərbaycan Respublikasının sosial müdafiə modeli nümunəsində sosial müdafiənin növbəti effektiv inkişafı üçün onun təşkili ilə bağlı aktual problemlərin və aspektlərin nəzərə əsaslara söykənməklə, təcrübədə də özünü göstərmiş əsas istiqamətlərinin, təkmilləşdirilmə üçün başlıca meyarların müəyyənləşdirilməsinin və bu məqsədlə yerli şəraitdə sosial müdafiənin islahat obyektinə alınması zəruri hesab etdiyimiz tənzimləmə elementlərinin strateji yanaşmada xəritəsinin verilməsidir.
**Açar sözlər:** *sosial müdafiə, sosial müdafiənin təşkili, sosial müdafiənin təkmilləşdirilməsi, sosial müdafiə mexanimləri, sosial müdafiədə prioritetlər.*

## GİRİŞ

Milli səviyyələrdə istənilən sosial müdafiə modelinin məqsədyönlü inkişafı fəaliyyətin səmərəli təşkili şəraitində baş verə bilər. Bu məqsədlərlə hər bir ölkədə sosial müdafiə sisteminə təsir edə biləcək yerli xüsusiyyətlərin, onların əhalinin sosial müdafiəsinin təmin edilməsinə konkret təsirlərinin öyrənilməsi idarəetmə əhəmiyyətli mühüm məsələlərdəndir ki, bu istiqamətdə real vəziyyətin dəyərləndirilməsi və optimal çıxış yollarının tapılması üçün elmi əsaslara söykənən təhlillərin aparılması və bu zaman elmi-metodoloji yanaşmaların vəziyyətə uyğun düzgün seçilməsi mühüm əhəmiyyət kəsb edir.

Müşahidələr göstərir ki, Azərbaycanda sosial müdafiə sistemi ötən onilliklər ərzində ümumən genişlənən maliyyə imkanları və artan xidmət səviyyəsi ilə inkişaf göstərmişdir. Sığorta-pensiya sistemi dövlət idarəçiliyində quruculuğun ilk illərindən ölkənin sosial siyasətinin profilindən də irəli gəlməklə əhalinin ən vacib iqtisadi və sosial ehtiyaclarının qarşılanması və yoxsulluqla mübarizədə əsas vasitə

kimi on plana çıxmışdır. Bu isə eyni zamanda dovlət sosial sığortası sisteminin (sığorta-pensiya sisteminin) sosial müdafiə mexanizmi olaraq sosial müdafiənin digər qolları (mexanizmləri) ilə müqayisədə daha mütərəqqi əsaslar üzərində formalaşmasını təmin etmişdir. Bu isə, hesab etmək olar ki, nəticə etibarilə sosial müdafiənin digər istiqamətlərinin ilk növbədə komparativ yanaşmada sığorta-pensiya sisteminə nəzərən, bir növ, sonrakı planda inkişaf yolu keçməsinə də müəyən dərəcədə təsir göstərmişdir. Bununla belə, pensiya təminatının da sistem olaraq formalaşması istiqamətində müəyyən təkmilləşdirilmələrin aparılması ilə bağlı aktual əhəmiyyətli hədəflər (pensiya təminatının yalnız məcburi dövlət sosial sığortasına əsaslanmaqla birpilləli quruluşda fəaliyyət göstərməsi, əmək pensiyalarının yığım elementinin aktivləşdirilməsi, sığorta vəsaitlərinin dividendliyinin təmin edilməsi və s. kimi) qalmaqdadır

Hazırda sığorta-pensiya sistemi üzrə sosial transfertlərin istər əhali gəlirlərində payı, dövlətin icmal büdcəsinin tərkibində büdcədənkənar fond qismində maliyyətutumu baxımından dinamik mövqe və potensiala malik olmaqla, sahə üzrə yenə də beynəlxalq və dəyişən yerli-sosial tələblər nəzərə alınmaqla təkmilləşdirilmə ilə bağlı qarşıda dayanan hədəflər mövcuddur.

Bununla belə, qeyd etdiyimiz kimi, digər sosial müdafiə mexanizmlərinin inkişafı ilə bağlı məsələlər isə daha çoxdur: burada ilk növbədə sosial müdafiənin təkmilləşdirilməsi istiqamətində sosial əhatəliliyin gücləndirilməsi baxımından məsələlərə səmərəli yanaşmalar ehtiva edən məqamlar (aspektlər) üzərindən təhlillər aparılmasına diqqət yetirilməsini vacib hesab etməkdəyik.

Bu çərçivədə yazıda sosial müdafiənin təşkili ilə bağlı aktual olmaqla, eyni zamanda ən strateji məsələlərə toxunulmaqla, əsas problemlərin müəyyən edilərək göstərilməsi və həll yolları üçün əsas elementlərin aydınlaşdırılmasına imkan verən elmi təhlilin aparılması Azərbaycanda sosial müdafiənin inkişafının davamlılığı nöqteyi-nəzərdən də elmi və praktiki əhəmiyyət kəsb etməkdədir.

## MATERİAL VƏ METODLAR

Azərbaycanda sosial müdafiənin təkmilləşdirilməsi ilə bağlı qəbul edilməklə mövzu məqsədlərinə uyğun zəruri hesab edilən qanunvericilik sənədləri, sosial müdafiə sahəsi ilə bağlı ixtisaslaşmış fəaliyyətləri olan müxtəlif beynəlxalq təşkilatların açıqladığı informasiyalar və müxtəlif hesabat məlumatları, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin (ARDSK) müvafiq sosial müdafiə istiqamətləri ilə bağlı rəsmi internet resursları vasitəsilə açıqladığı göstəricilər tədqiqatın təhlillər üçün əsas məlumat bazasını formalaşdırmışdır. Mövzu xəttinin işlənilməsində ümumi elmi təhlil metodogiyasına əsaslanılmaqla, mövzunun makro və strateji əhəmiyyətli olması da nəzərə alınaraq mülahizələrin elmi əsaslandırılmasının möhkəmləndirilməsi üçün müəyyən məqamlarda kəmiyyət metodlarına müraciət edilərək daha çox əldə olunması mümkün olan makromiqyaslı statistik göstəricilər üzrə müqayisələrdən istifadə olunmuşdur. Qeyd etməliyik ki, bu istiqamətdə təhlillərin aparılması zamanı əldə olunması mümkün, eyni zamanda zəruri hesab edilmiş rəsmi dövlət statistikası məlumatlarından yararlanılsa da, mövcud praktikada müəyyən sosial müdafiə mexanizmləri üzrə statistik verilənlərin nomenklaturasının məhdud olması həmin istiqamətlərdə daha şaxələndirilmiş təhlillərin aparılmasına münasibətdə çətinliklər yaratması ilə müşayiət olunmuşdur.

Bu səbəbdən sosial müdafiənin başqa müxtəlif digər istiqamətlərdə islahatlılıq məqsədlərilə məsələlərinə yenidən ayrıca tədqiqatlarla baxılması da fayda kəsb etməkdədir.

## ƏLDƏ OLUNAN NƏTİCƏLƏR

Məqalə çərşivəsində toxunulmuş sosial müdafiə istiqamətləri üzrə sosial müdafiənin problemləri ilə bağlı aparılmış təhlillər Azərbaycanda sosial müdafiə sisteminin formalaşmasının cari mərhələsində retrospektiv baxışda planlaşdırılmasına baxmayaraq hazırkı dövrədək yerinə yetirilməsində natamamlıqlar qalmış müvafiq sosial müdafiə mexanizmləri və onların xüsusi komponentlərinin, eləcə də sosial müdafiədə prioritet-zəruri islahatlılıq istiqamətləri və onların xüsusiyyətlərinin bəzi konkret nümunələrdə (pensiya və müavinətlərlə təminat, sosial yardım, əlillərin sosial müdafiəsi sahələri bazasında) tədqiq olunmasının əsas nəticələrini göstərməklə, sosial müdafiənin perspektiv

təkmilləşdirilməsinin aktual strateji-məsələlərini əks etdirir. Eyni zamanda Azərbaycanda sosial müdafiə ilə əhatə olunma baxımından sosial müdafiənin üç mühüm mexanizmi kimi, daha yaxşı nəticələrin pensiya təminatı sahəsi ilə bağlı olduğu, sosial yardım və əlilliyi olan şəxslərin sosial müdafiəsi ilə bağlı isə əhatə dairəsinin xeyli genişləndirilməsinə ehtiyac olduğu müəyyənləşdiriməklə, bu məqsədlə optimal həll yolu olaraq maliyyə və təşkilati rıçaqlar arasında imkanların optimal əsaslarla genişləndirilməsinin strateji tərəfləri göstərilmişdir.

**MÜZAKİRƏ**

**1. Azərbaycanda sosial müdafiənin aktual-strateji problemləri**

Hazırkı şəraitdə Azərbaycanda sosial müdafiə mexanizmlərinin yerli tələblər, eyni zamanda qlobal inkişaf tendensiyaları da nəzərə alınaraq müasir sosial və iqtisadi tələblərə uyğunluq mühitində daha da təkmilləşdirilməsi üçün qarşıda növbəti təşəbbüslərin atılmasına ehtiyac olduğunu hesab etmək lazımdır.

Belə ki, Azərbaycan Respublikasında ötən dövrə dair ən yaxın strateji sənəd olaraq sığorta-pensiya sisteminin inkişafı ilə bağlı 2009-2015-ci illər üzrə dövlət proqramının, həmçinin onun davamı olaraq, 2014-2020-ci illərə dair müvafiq dövlət konsepsiyasının, demək olar ki, hələ də, bəzi istiqamətləri üzrə müəyyənləşdirilmiş hədəflərin icrasına nail oluna bilinməmişdir: bu çərçivədə əmək pensiyalarının könüllü yığım komponentinin real praktikada tətbiqi və qeyri-dövlət pensiya institutlarının formalaşdırılması və inkişaf etdirilməsi, pensiya təminatı sisteminin uzunmüddətli inkişafı üçün aktuar təhlillərə əsaslanan mexanizmlərin formalaşdırılması hələ ki təmin edilə bilinməmişdir. Sığorta prinsiplərinin daha da gücləndirilməsi istiqamətində pensiya təminatı sistemində mövcud normativ əsaslardan irəli gəlməklə və sığorta əsası olmamaqla mövcud pensiya sisteminin uzunmüddətli maliyyə dayanıqlılığına mənfi təsirli xərclər formalaşdıran öhdəliklər tam tənzimlənilməklə məhdudlaşdırılmamışdır. Təsadüfi deyil ki, ölkədə ali dövlət nəzarət orqanı olan Azərbaycan Respublikasının Hesablama Palatası tərəfindən də dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsinə dair verilmiş rəydə bu məqamlara diqqət yetirilməklə, son illərdə pensiya qanunvericiliyində həyata keçirilmiş dəyişikliklərin sosial sığorta prinsiplərinə əsaslanmayan əmək pensiyalarının, o cümlədən əmək pensiyaları üzrə təyinatların minimim pensiya məbləğlərində təyinatların çoxalması tendensiyasının ilə müşayiət olunduğu, aparılmış təhlillərin nəticəsi olaraq gələcək illərdə əmək pensiyalarının sosial sığorta əsaslılığının möhkəmləndirilməsi istiqamətində islahatlar aparılmasının sığorta-pensiya sisteminin dayanıqlığının əsas prinsiplərini təşkil edəcəyi qənaətinə gəlinmişdir (Dövlət sosial müdafiə fondunun 2025-ci il üçün büdcə Layihəsinə Azərbaycan Respublikası Hesablama Palatasının Rəyi, 2024, s. 54; Universal Social Protection, s. 4).

Sığorta prinsipinə əsaslanmayan pensiya xərclərinin artması ilbəil aparılan indeksləşdirilmələrlə daha da çoxalmaqda, nəticədə cari sığorta ehtiyatlarından daha çox istifadəyə şərait yaratmaqdadır ki, bu da özlüyündə uzunmüddətli perspektiv üçün maliyyələşmə riskləri formalaşdırmaqdadır.

Azərbaycanda postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2022–2030-cu illəri əhatə edən strateji inkişaf mərhələsinə dair fundamental strateji inkişaf hədəflərini müəyyən edən - "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" da növbəti ərəfədə özəl pensiya institutlarının fəaliyyəti üçün hüquqi mühitin formalaşmasını, pensiya təminatı sistemində dövlət öhdəliklərinin dəqiq çərçivəsinin müəyyən edilməsini, bütün pensiyaların vahid indeksasiya metodu ilə artmasına keçilməsini pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi, pensiyaçıların dövlət təminatının əhatəliliyinin genişləndirilməsi, həmçinin pensiya təminatı sisteminin maliyyə dayanıqlılığının təmin edilməsi üçün pensiya təminatı sisteminin təkmilləşdirilməsi yolları olaraq görməkdədir.

Hazırda Azərbaycan Respublikası Prezidentinin "Dövlət sosial müdafiə fondunun sərbəst vəsaitinin investisiyaya yönəldilməsi və investisiya gəlirlərindən istifadə edilməsi Qaydası"nın təsdiq

edilməsi haqqında” 2023-cü il 17 aprel tarixli 2105 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət sosial müdafiə fondunun sərbəst vəsaitinin investisiyaya yönəldilməsi və investisiya gəlirlərindən istifadə edilməsi Qaydası”na müvafiq olaraq yarımillik və illik dövr üzrə dövlət sosial müdafiə fondunun gəlir və xərcləri arasında yaranan profisiti əks etdirən sərbəst vəsaitdən müəyyən hissənin investisiyaya yönəldilməsi həyata keçirilə bilməkdədir. Qeyd etmək lazımdır ki, əmək pensiyalarının (əvvəllər tətbiq edilməsi nəzərdə tutulsa da) faktiki olaraq reallaşdırılması mümkün olmamış – yığım hissəsinin aktivləşdirilməsi (müvafiq əlaqədar normativ sənədlərə nəzərən könüllü əsaslarla tətbiqi daha çox düşünülməklə), eləcə də əlavə (könüllü) sosial sığorta mexanizmləri çərçivəsində pensiya təminatı sistemində investisiya əhəmiyyətli idarəetmə profilinin işlək vəziyyətə gətirilməsinin bu günədək reallaşmadığı baxımından fondun sərbəst vəsaitlərinin sözügedən qayda ilə müəyyən edilmiş istiqamətlərdə investisiyaya yönəldilməsi olduqca mütərəqqi nailiyyət hesab olunmalıdır. Belə ki, bu təşəbbüslər maliyyə idarəetməsi yanaşması olaraq sığorta-pensiya sistemində maliyyə resurslarının real dəyərinin qorunmasına xidmət etməklə, eyni vaxtda vəsaitlərin müəyyənləşdirildiyi kimi, bank fəaliyyəti çərçivəsində az riskli və ya risksiz hesab edə biləcək maliyyə alətlərinə yönəldilməsi mütərəqqi islahat tədbiri hesab edilə bilər. Bununla həmin vəsaitlərin saxlanılması və ya sosial sığorta məqsədləri və pensiya təminatının özünün genişləndirilməsi üçün istifadə edilməsi ilə bağlı imkanlar, eyni zamanda məsuliyyətlər də ortaya çıxır ki, bu da həmin vəsaitlərdən maksimum səmərəli istifadə edilməsi zərurətini formalaşdırır.

Sosial müdafiənin təşkili ilə bağlı zəruri prinsiplərin gözlənilməsi də onun əsas təşkilati problemlərindəndir. Qeyd etmək olar ki, bu çərçivədə daha çox diqqət tələb edəcək sahəni – yenə də pensiya təminatı hesab etmək lazımdır. Hazırda pensiya təminatı üzrə, belə demək mümkünsə, sosial ədalət prinsipi, belə demək mümkünsə, daha çox “gərilmə” ehtimalı ilə üzüzədir.

2023-cü ilin əvvəlindən pensiyaların vahid indeksləşdirilməsi metoduna keçilmişdir (*İndeksləşdirmə əsasında artım gələn ilin əvvəlindən bütün pensiyalara şamil olunacaq*, 2022).

Bu addım pensiya təminatının idarə olunmasında sistemliliyin gücləndirilməsi, vahid yanaşma əsasında idarəetmə (hesablama) mexanizmlərinin sadələşdirilməsi kimi qəbul olunur. Qeyd olunmalıdır ki, bu, eyni zamanda xüsusən bəzi hallarda daha böyük pensiya məbləğləri ilə ifadə olunan güzəştli və ya xüsusi şərtlərlə təyinata əsaslanan pensiyaların minimum pensiya və ya median pensiya məbləğlərinə münasibətdə mütləq ifadədə daha böyük məbləğ fərqlərilə artımına da gətirib çıxarması ehtimallarının da artmasını qaçılmaz edir ki, bu məsələlər də sistemdə sosial ədalət, bəzən isə müəyyən mənada sığorta prinsiplərinin gözlənilməməsi kimi də ictimai rəy formalaşdırmasına gətirib çıxara bilir. Bu kimi hallar, fikrimizcə, istənilən halda qanunvericilik bazasının pensiya gəlirlərinin paylanmasında müəyyən mənada tarazlaşmaya gətirib çıxaracaq müvafiq elementlərlə dəyişikliklər hesabına tənzimlənilməsinin diqqətdə saxlanılmasını da zərurətə çevirəcəkdir.

Mövcud qanunvericilik bazasına dayanaraq büdcədənkənar dövlət fondu kimi, dövlət sosial müdafiə fondu qarşısında pensiya sisteminin gələcək öhdəliklərinin getdikcə artmasına əhalinin nominal (muzdlu) gəlirlərinin təbii artımına paralel olaraq, hər il sığortaolunanların fərdi hesablarında toplanılan pensiya kapitallarının ilbəil istehlak qiymətləri indeksinin illik artım tempinə (inflyasiya) uyğun olaraq, pensiyaların isə orta aylıq nominal əməkhaqlarının illik artım tempinə müvafiq inzibati qaydada tətbiq edilən artımlar kimi amillər təsirini göstərməkdədir.

Hazırda baş verməkdə olan demoqrafik səbəblərdən irəli gələrək əməkqabiliyyətli yaşda olan aktiv əhalinin sayının azalacağı, eyni zamanda ömür uzunluğunun artması ilə bərabər pensiya sisteminə daxil olacaq sığortaolunalara (yeni pensiyaçılara) münasibətdə əhalinin muzdlu fəaliyyətdən gəlirlərinin ilbəil artımı fonunda sonrakı illərdə getdikcə daha böyük pensiya kapitalları ilə pensiya təyinatlarının aparılmasının şərtləndirildiyi bir şəraitdə pensiya sisteminin maliyyə defisitliyi problemi ilə də üzləşməsinin daha da aktuallaşacağı ən azından nəzərə olaraq gözlənilən hesab edilir.

Bu baxımdan sosial müdafiənin təşkilində qarşıdakı məqsədlərin müəyyənliyinə münasibətdə müxtəlif qütblü dəyərləndirilmə prinsipi əsasında, başqa bir ifadədə - “konkret müddətdə sosial müdafiənin ekstensiv (sosial kontingent) əhatəliliyinin artırılması – pensiya təminatı sisteminin özünün

maliyyə dayanıqlılığının möhkəmləndirilməsi – sosial müdafiə xərclərinin artırılması" kimi üçlü seçim qarşısında qərar qəbulu proseslərində optimallığın saxlanılması üçün maliyyə resurslarından qənaətlə və səmərəli istifadə edilməsinə daha da ciddiliklə əməl edilməsi getdikcə daha çox aktuallıq kəsb edəcəkdir. Belə olan bir şəraitdə, təbiidir ki, pensiya sistemində uzunmüddətli hədəfin - hazırda qiymətləndirilməmiş potensial maliyyə resurslarının və imkanlarının müəyyən edilərək onların sığorta-pensiya sisteminin maliyyə idarəetməsi dövriyyəsinə cəlb edilməsinə, formalaşan maliyyə resurslarının "son zərurət" prinsipilə xərclənilməsinə və bu çərçivədə zəruri olmayan xərclərin mümkünlük təqdirində maksimum məhdudlaşdırılmasına, yaxud tamamilə aradan qaldırılmasına gətirib çıxaracaq yanaşmada idarəetmənin təşkilinə uyğunlaşılmasının zəruri və ən mümkün təşəbbüslər olaraq mənimsənilməsi milli sosial müdafiə sistemi çərçivəsində pensiya təminatı ilə bağlı müsbət inkişaf meylləri formalaşdıra bilər.

Bu işin bir tərəfində sosial sığorta haqları üzrə yığım potensialının dayandığı kimi, digər tərəfində toplanan maliyyə resursları üzrə cari xərclənmələrlə yanaşı, rezervlərin də yaradılması və həmin rezervlərin investisiya əhəmiyyətli dividendliyinin təmin olunması ilə iqtisadi dəyərinin qorunub saxlanılması dayanır. Yuxarıda qeyd etdiyimiz kimi, sığorta vəsaitlərinin investisiya əhəmiyyətli istifadəsi ilə bağlı işlərə başlanılsa da, onun sistemli idarə edilməsi ilə bağlı dövlət sosial müdafiə fondu vəsaitlərinin idarəedicisi kimi çıxış edən - Dövlət Sosial Müdafiə Fondu tərəfindən məsələyə fundamental və ən əsası instisusional olaraq yanaşılmasını vacib hesab etmək lazımdır. Digər bir tərəfdən, bu çərçivədə dövlət sosial müdafiə fondunun məcburi dövlət sosial sığorta haqları üzrə daxilolma portfelində kənd təsərrüfatında göstərilən fəaliyyətə görə, eləcə də sahibkarlıq üzrə yığım potensialının fondun gəlirləri arasında payının yüksəldilməsi yollarının axtarılması həlli vacib məsələlərdəndir.

Hazırda sosial müdafiənin əsas sütunu kimi, ölkədə pensiya təminatında sosial müdafiənin mahiyyət baxımından əsas mütərəqqi cəhətini – pensiya təminatında əhatəliliyin təmin olunması ilə əlaqələndirmək olar. Bunu müqayisəli statistika təhlili ilə də görmək olar:

Sosial müdafiə sahəsində qlobal miqyasda ixtisaslaşmış əsas beynəlxalq təşkilat kimi Beynəlxalq Əmək Təşkilatının 2024-cü ildə dərc etdirdiyi sosial müdafiəyə dair hesabatda Azərbaycanla bağlı hissədə qanunvericiliklə müəyyən edilmiş pensiya yaşına çatmış şəxslər arasında 2023-cü ildə sosial müdafiə ilə əhatə olunan şəxslərin (bu məqsədlə ödəniş alan) 97 faiz təşkil etdiyini, onun 81,9 faizinin – sığorta-pensya sistemi çərçivəsində, 15,1 faizinin isə dövlət büdcəsi (vergi daxilolmaları mənbələri hesabına maliyyələşdirilməklə) çərçivəsində maliyyələşdirildiyinin əks etdirildiyini görmək olar. Eyni zamanda sığorta-pensiya sisteminə (mövcud pensiya təminatı sxeminə (proqramına)) aktiv olaraq sığorta haqları ödəyənlərin sayının işçi qüvvəsinin (15 yaşdan yuxarı şəxslər üzrə) sayında payı 33,1 faiz, əmək qabiliyyətli əhalidə payı isə, təbii olaraq, daha az – 19,8 faiz təşkil etdiyi barədə məlumat əldə edə bilirik ("World Social Protection Report", s. 303).

Bu isə növbəti islahatların istiqamətinin və prioritetlərinin müəyyən edilməsi baxımından mühüm göstərici əhəmiyyətindədir

## 2. Növbəti mərhələdə sosial müdafiənin təkmilləşdirilməsi ilə bağlı prioritet meyarlar

Müasir şəraitdə Azərbaycanda sosial müdafiənin ilk növbədə aşağıdakı prioritet aspektlərdən təkmilləşdirilməsinin vacib olduğunu qeyd edə bilərik:

- **Maliyyə aspektindən:** Pensiya sisteminin özündə pensiya gəlirlərinin pensiyaçıların müxtəlif sosial qruplarına münasibətdə bölgüsü ilə bağlı sığorta prinsipinə əsaslanma əsas götürülməklə tarazlı və ədalətli (fərd üzrə ən azından sığorta kapitalının tam şəkildə onun təminatına yönəldilməsi zəmanətilə) yaxınlaşmada tənzimləmələrin vaxt keçmədən tətbiqi zəruri əhəmiyyətlidir. Əlbəttə, qəbuledilləndir ki, müvafiq dövlət proqramları və strateji-normativ aktlarda sığorta prinsipinin gücləndirilməsi ilə bağlı müddəalarla da əhəmiyyəti vurğulanmasına baxmayaraq, hazırda Azərbaycanda pensiya təminatının tam sığorta prinsipləri üzərində fəaliyyətinin qurulması hələ ki mümkün deyildir. Belə ki, ötən bütün illərdə sığorta haqları üzrə yığım əmsalı yüksələn xətlə inkişaf etsə də, formalaşan vəsaitlər

maliyyələşmə mənbəyi olaraq ödənişdə olan pensiya xərclərini tam qarşılamağa imkan verməməkdədir. Eyni zamanda təyin edilmiş pensiyalar, eləcə də əhəmiyyətli sayda perspektiv pensiyaçıların (cari sığortaolunanların) formalaşdırdığı və istənilən gələcək üçün real pensiya öhdəliyinə çevriləcək olan sığorta-pensiya kapitallarının bir hissəsi də ölkədə həssas əhali təbəqəsi kimi pensiyaçıların sosial müdafiəsinin təmin edilməsi məqsədi əsas götürülərək sığorta prinsipi ilə əslində (ideal yanaşdıqda) uzlaşmamaqdadır (belə ki, kiçik və fərqli əməkhaqları və əmək ödənişi sistemlərinin olduğu – sovet və 1992-ci ilə qədərki dövrlər üzrə şərti hesablama əsasından müəyyənləşdirilməklə və növbəti illər üçün indeksləşdirilmələr tətbiq edilməklə formalaşdırılan kapital məbləğlərini əhatə etməkdədir). Bu qəbildən təbəqəyə bir çox hallarda minimum pensiya məbləğlərinə yaxın da olsa belə, pensiya verilməsi həyata keçirilməkdədir, yaxud digər bir yanaşmada buna bənzər bir problem olaraq, onu da qeyd etmək olur ki, 1992-ci illərdən sonrakı dövrlərdə (bəzi hallarda bugünədək) özlərindən asılı olmayan səbəblərdən, yəni dövlət büdcəsindən maliyyələşən, lakin geniş iş qüvvəsi (məşğulluq sayı) ilə müşayiət olunan müəyyən əmək fəaliyyəti sahələrdə (məsələn, o cümlədən tibb, təhsil, mədəniyyət kimi) tətbiq olunan əməkhaqqı sistemlərindən irəli gələrək xeyli sayda sığortaolunanın və ya gələcək pensiyaçının fərdi hesablarında minimum pensiya məbləğinin hesablanmasına imkan verməyəcək qədər aşağı həddə kapital məbləğlərinin formalaşması da baş verir ki, bu da həm həmin şəxslərin gələcəkdə yüksək pensiya məbləğləri ilə təmin olunmasına imkan yaratmamaqla, qaldırılan mənada həmçinin sığorta əsası olmadan - digər sığorta olunaların cari olaraq ödədikləri sığorta haqları hesabına və ya formalaşdırılmış sığorta ehtiyalatlarından xərclənmə hesabına onlara sistemdən pensiya ödənişlərinin aparılmasına gətirib çıxarması ilə də nəticələnir. Müvafiq rəsmi statistikanın nəzərdən keçirməklə, qeyd etmək olar ki, Azərbaycanda 2023-cü ildə məşğul əhalinin təqribən 50 faizindən çox olan əhəmiyyətli bir hissəsinin kənd təsərrüfatı və xidmət kimi sahələrin (o cümlədən 35,8 faizlə - kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 7,8 faizinin - təhsil, 3,8 faizinin - əhaliyyə səhiyyə və sosial xidmətlərin göstərilməsi kateqoriyaları üzrə) payına düşməsinə baxmayaraq, xüsusilə kənd təsərrüfatı üzrə gəlirlərin səviyyəsi ölkədə dövlət və qeyri-dövlət sektoru üzrə iqtisadi fəaliyyət növləri üzrə orta aylıq nominal əməkhaqqı göstəricisi olaraq hesablanıla bilən - 1258,5 manatdan 2,2 dəfə aşağı olmaqla 538,8 manat təşkil etməkdədir. Təbiidir ki, bu kimi məsələlər də bu sahədə əmək fəaliyyətinin qurulmasında da stimulların azalmasına təsir etmə imkanlarını ehtiva etməkdədir, eyni zamanda sosial müdafiənin gələcəkdə inkişafına da mənfi təsir göstərmək effektlərini özündə daşımaqdadır.

**Vətəndaş müraciətlərinin həlli aspektindən:** Hazırda sosial müdafiə sisteminin fəaliyyəti barədə məlumatların cəmiyyətə operativ və iqtisadi cəhətdən daha səmərəli (az xərclərlə) çatdırılması üçün informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə mərkəzləşdirilmiş elektron məlumat bazalarının təşkili və idarə olunması sistemdə idarəçiliyin inkişafı üçün əlavə imkanlar açmış və ölkəmizdə də bu istiqamətdə nəticələr hiss olunmaqdadır. Sosial müdafiə sistemini formalaşdıran dövlət orqanı və qurumlarda ictimaiyyətlə əlaqələrə xüsusi əhəmiyyət verilməklə, bilavasitə vətəndaş müraciətlərinin təşkili və idarə olunması, regionlarda ictimai dinləmələrin həyata keçirilməsi, müxtəlif ənənəvi kütləvi informasiya vasitələrilə ictimai məlumatlandırmanının artırılmasına geniş yer verilir. Bu çərçivədə xüsusən internet şəbəkəsi vasitəsilə müxtəlif platformalarda olan sosial media kanalları vasitəsi ilə ən son məlumat və yeniliklərin müvafiq sosial kontingentə çatdırılması üçün davamlı (kəsintisiz) işlər aparıldığı daha çox önə çıxır. Müvafiq qurumlar tərəfindən müəyyən vaxt aralıqlarında onlar tərəfindən qəbul edilmiş vətəndaş sayları, müraciətlərin məzmunu və motivi barədə məlumatlarla birgə məmnunluq səviyyəsi barədə konkret, eyni zamanda çox vaxt yuxarı həddə göstəricilərin açıqlanılması müşahidə edilir. Bu kontekstdə, hesab etmək olar ki, daha keyfiyyətli xidmətin təşviq edilməsi üçün bu qiymətləndirilmələrin və monitorinqlərin kənar subyektlər tərəflər aparlması üçün zəruri əsasların yaradılması məsələlərinə də baxılması sosial müdafiə ilə bağlı mübahisələrin də effektiv həlli üçün əlavə və yeni mexanizmlər formalaşdıra bilər.

**Sosial müdafiənin əhatəliliyi aspektindən:** Müxtəlif beynəlxalq təşkilatlar səviyyəsində də, onlar tərəfindən hazırlanan hesabat icmallarında və digər tədqiqat məlumatlarında bu məsələyə sosial

müdafiənin müasir inkişafı baxımından xüsusi əhəmiyyət verilir. Hazırda BMT səviyyəsində qəbul edilən Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) də 1.3.1-ci hədəf indikatoru - effektiv sosial müdafiə ilə əhatə olunmadır.

Qeyd etmək olar ki, sosial müdafiədə əhatəlilik iki aspektdə təzahür edir – sistemdaxili əhatəlilik və sosial əhatəlilik. Sistemdaxili əhatəliliyi sosial müdafiənin əsaslandığı sosial müdafiə proqramlarının (sosial müdafiə istiqamətləri və ya mexanizmlərinin) çərçivəsi formalaşdırır. Sosial əhatəlilik isə daha geniş diapazonda sosial həssas əhali qruplarına müdafiə mexanizmlərinin şamil edilməsi səviyyəsini nəzərdə tutur. Sosial müdafiənin effektivliyi baxımından qeyd edilən hər iki şaxənin mümkün imkanlara uyğun genişləndirilməsi vacib əhəmiyyətlidir.

Beynəlxalq yanaşmalarda sosial müdafiənin konkret əhatə sərhədlərinin göstərilməsi mürəkkəb bir məsələ olmasına baxmayaraq, sosial müdafiə sistemlərinin əsasən üç – sosial yardım, sosial sığorta və əmək bazarı proqramlarını özündə ehtiva etməsi tipik hesab edilir (Kangasniemi və b., 2025).

Bu mənada Azərbaycanda da sosial müdafiənin əhəmiyyətli problemlərindən biri olaraq sosial müdafiənin əhatəliliyinin ümumi yanaşmada təmin edilməsini aktual hesab etmək olar. Sosial dövlət quruculuğu və sosial siyasətin prioritetlərindən qaynaqlanmaqla izlənilən idarəetmə kursu və həyata keçirilmiş islahatların məqsəd və hədəflərinə uyğun olmaqla faktiki olaraq sığorta-pensiya sistemi daha çox inkişaf etməklə Azərbaycanda sosial müdafiənin ən qabaqcıl mexanizminə çevrilmişdir ki, həmçinin bu cəhətdən sadaladığımız digər iki sosial müdafiə proqramı nisbətən, bir növ, sonrakı planda inkişaf etmişdir.

Yuxarıda qeyd etdiyimiz hədəf indikatoru çərçivəsində Beynəlxalq Əmək Təşkilatı (BƏT) tərəfindən 2015-ci və 2023-cü illərə dair əhali qruplarına münasibətdə qlobal, regional, gəlir səviyyələrinə görə təsnifatlaşdırılmış məlumatlara nəzər yetirdikdə bütün sosial müdafiə istiqamətləri üzrə qeyd edilən illərdə ümumən qlobal irəliləyişin baş verməsi aydın görünür, ən yüksək əhatəlilik göstəriciləri isə Avropa və Mərkəzi Asiya ölkələrinə xasdır: 2023-cü ildə dünya üzrə sosial müdafiə ilə əhatə olunma dərəcəsi yaşlı əhali üzrə (1) - 79,6 faiz, ən azından bir sosial müdafiə ödənişi ilə əhatə olunma üzrə (2) - 52,4 faiz, müxtəlif əlilliyi olan şəxslər üzrə (3) - 38,9 faiz, əmək zədəsi ilə bağlı (4) – 37,4 faiz, sosial həssas əhalinin sosial yardımlarla əhatə olunması üzrə (5) – 37,3, yeni doğum keçirən analar üzrə (6) - 36,4 faiz, uşaqlar üzrə (7) - 28,2 faiz, işsizlik üzrə (8) - 16,7 faiz təşkil etməkdədir. Azərbaycanın aid edildiyi yuxarı-orta gəlirli-ölkələr kateqoriyası üzrə isə bu göstəricilər müvafiq olaraq – (1) - 90,4 faiz, (2) – 71,2 faiz, (3) – 50,0 faiz, (4) - 40,5 faiz, (5) - 45,0 faiz, (6) – 32,6 faiz, (7) – 27,8, (8) – 17 faiz təşkil etməkdədir (World Social Protection Report 2024-26, s.21).

Göründüyü kimi, əksər indikatorlar üzrə (xüsusən yaşlı əhali, ən azından bir sosial müdafiə ödənişi ilə əhatə olunma, əlilliyi olan şəxslər, əmək zədəsi üzrə əhatəyə münasibətdə) yuxarı-orta-gəlirli ölkələr qrupunda qlobal orta göstəricilərlə müqayisədə daha əhatəli sosial müdafiə səviyyəsi mövcuddur.

Hesab edirik ki, ölkədə sosial müdafiənin təkmilləşdirilməsi baxımından sosial əhatəlilik səviyyəsinin qiymətləndirilməsi üçün baza meyarları olaraq Azərbaycanda da müvafiq əhali qrupları üzrə yuxarıda qeyd edilmiş qlobal göstəriciləri ilə müqayisəli təhlilin aparılması məqsədəuyğun olar. Bu zaman tədqiqat məhdudiyyəti olaraq bəzi hallarda müqayisə üçün lazımi statistik göstəricilərin əldə olunması çətinliyinin mövcudluğu da gözlənilən məqamlardandır.

İlk növbədə ölkədə sosial müdafiənin əsas mexanizmi kimi, sığorta-pensiya sisteminin çıxış etdiyini nəzərə alaraq məsələyə yaşlı əhali yanaşmasında baxaq. Rəsmi statistikanı nəzərdən keçirdikdə 2024-cü ildə Azərbaycanda 65 və daha yuxarı yaşda olan əhalinin sayının 930,3 min nəfər təşkil etdiyini müəyyən edə bilərik. Eyni zamanda ölkə qanunvericiliyinə əsasən pensiya təyinatı üçün müvafiq yaş həddinə çatmasına baxmayaraq müvafiq şərtlərə uyğunluğu olmayan şəxslərin yaşa görə sosial müavinət alması baxımından müvafiq statistikaya baxmaqla həmin istiqamət üzrə də 442 mindən artıq şəxsin yaşa görə sosial müavinət aldığını, yaşa görə pensiyaçıların sayının 701,6 min nəfər, əlilliyə görə pensiyaçıların – 258,1 min nəfər, ailə başçısını itirməyə görə əmək pensiyaçılarının isə 136,2 min nəfər olduğunu nəzərə alsaq, bu zaman pensiya təminatı prizmasından Azərbaycanda 65

yaşdan yuxarı əhalinin sosial müdafiə ilə əhatə olunmasının sistemlilik baxımından təmin oluna bilindiyini qeyd edə bilərik.

Bununla yanaşı, əhəmiyyətli məqamlardan biri kimi, son dövrlərdə əmək pensiyası üzrə təyinatların sayındakı azalmalar və eyni vaxtda yaşa görə sosial müavinət alan şəxslərin sayı dəyişməsi arasında asılılıq əlaqəsinin formalaşdığını ehtmal etmək olar. Belə ki, bu məqam, əhatəlilik baxımından sosial müdafiənin effektivliyinə münasibətdə problematik mahiyyət kəsb etməsə də, dəqiq müəyyənləşdirilməmə təqdirində nisbətən yaşlı əhali təbəqəsinin rifah halının zəifləməsi mahiyyətli təsirlər də formalaşmasını qaçılmaz edəcəyi hesab edilir.

UNICEF təşkilatının Azərbaycanla bağlı 2023-cü il üçün büdcə zərfi məlumatında da Azərbaycanda uşaqların sosial müdafiə ilə əhatə olunması məsələsinə toxunulmaqla, ən azı bir sosial müavinət növü ilə əhatə olunan uşaqlarının payının 2020-ci ildə 16,9 faiz təşkil etdiyi və bu göstəricinin uyğun olkələrlə müqayisədə aşağı olduğu qeyd edilmişdir (UNICEF, s. 2).

Sosial yardımın uşaqlar, pensiyaçılar və işləyən əhali üçün dövlət ərəfindən müəyyən olunan adambaşına ehtiyac meyarı məbləğinə əsasən təyin edildiyini nəzərə almaqla ölkədə ailələrin ayrılıqda gəlirləri, ehtiyac meyarına münasibətdə ehtiyac həddində hesab edilən ailələrin sayı, ailə üzvlərinin sayı, yaş və sosial statusu barədə göstəricilərinə əlçatanlığın məhdud olması baxımından sosial yardım proqramı üzrə əhatəliliyin dərəcəsi barədə mülahizələrin verilməsi üçün beynəlxalq müqayisələrdən istifadə olunması əlverişli metodlardan biri kimi istifadə oluna bilər.

BƏT-in 2024-cü ildə dərc etdirdiyi sosial müdafiə hesabatından əldə etdiyimiz məlumata əsasən Azərbaycan Respublikasında DİM-in 1.3.1-ci hədəf indikatoruna uyğun olmaqla müxtəlif sosial müdafiə mexanizmləri üzrə sosial müdafiə ilə əhatə olunma ilə bağlı göstəricilər açıqlanılmışdır:

Həmin mənbə vasitəsilə müəyyən etmək olur ki, ölkədə sosial müdafiə çərçivəsində əhatə olunma dərəcəsi ən azından bir sosial müdafiə ödənişi (səhiyyə istisna olmaqla) üzrə – 35,2 faiz, müxtəlif əlliliyi olanlar üzrə - 100 faiz, əmək zədəsi ilə bağlı - 33,1 faiz (2022-ci il), yaşlı əhali üçün – 97 faiz, yeni doğum keçirmiş analar üzrə - 28,5 faiz (2022-ci il), sosial yardım müavinətləri üzrə - 10,6 faiz, 15 yaşadək uşaqlar üzrə - 10,3 faiz, 18 yaşadək uşaqlar üzrə - 8,6 faiz, işsizlik üzrə isə - cəmi 1,6 faiz (habelə Dünya Səhiyyə Təşkilatına əsasən universal sağlamlıq əhatəliliyi – 65,7 faiz olmaqla) təşkil etməkdədir (World Social Protection Report, s. 291).

Bu istiqamətdə qeyd etdiyimiz göstəricilərə nəzərən ölkədə uşaqların sosial müavinətlərlə əhatə olunması ilə bağlı vəziyyətin yaxşılaşdırılması üçün tədbirlər görülməsinin aktuallıq kəsb etməsi ilə bağlı baxışımızı möhkəmləndirə bilərik. Həmçinin sosial yardımla bağlı göstəricilərin də dimakinasında yaxşılaşmaların ilbəil müaşahidə edilməsinə baxmayaraq, bu istiqamətdə idarəetmə səviyyəsində təkmilləşdirici səylərin artırılmasının olduqca vacib olduğunu qeyd edə bilərik.

Eyni zamanda əlilliyi olan şəxslərin əhatə olunması ilə bağlı müvafiq göstəricinin isə statistik olaraq əlverişli səviyyədə olmasına baxmayaraq, müraciət halına bağlı olması və ya təşkilati çatışmazlıq ehtimallarından irəli gələrək aşkarlanmamış əlilliklərin də mövcudluğu ehtimal olunmaqla bu istiqamət üzrə də səylərin xüsusən davamlı şəkildə gücləndirilməsinə ehtiyac olduğunu hesab etmək olar.

Nəzərə aldıqda ki, ölkəmizdə əlilliyi olan şəxlərin sayı ümumi əhalinin payında kifayət qədər kiçik göstəricilərlə müşayiət olunmaqdadır, beləliklə sosial müdafiənin fəlsəfəsinə uyğun olaraq bu istiqamətdə maddi və təşkilati resursların daha çox ayrılmasını ehtiva edən tədbirlərin görülməsinə məqsədəuyğun əhəmiyyətdə baxıla bilər. Əhali və əlillikla bağlı rəsmi statistika üzərində təhlillərimiz göstərir ki, son 15 il ərzində Azərbaycanda əhali sayının artımı azalan templərlə baş versə də, müsbət tendensiyalı olmuşdur. Bunun müqabilində isə 2008-2017-ci illərə münasibətdə pensiya və əlilliyi olan müavinət alan şəxslərin sayının dəyişməsi tendensiyası ilə ölkə əhalisinin sayının dəyişmə tendensiyası arasında ümumi yanaşdıqda bir uyğunluq müşahidə edilə bilsə də, sonrakı illərdə bu say üzrə kəskin azalmaların olduğunu müşahidə etmək olur (şəkil 1):




Şəkil 1. Azərbaycanda pensiya və ya əlilliyi olan müavinət alan şəxslərin sayının dinamikası (əvvəlki ilə nisbətən (faizlə) artım templəri ilə verilməklə)

Mənbə: ARDSK məlumatlarına əsasən müəllif tərəfindən hesablamalarla hazırlanmışdır.

2024-cü ilin əvvəlinə olan rəsmi statistikaya əsasən Azərbaycanda əlilliyi olan şəxslərin sayı 503 685 nəfər olaraq açıqlanılmışdır. 2023-cü ildə pensiya və ya müavinət alan əlilliyi olan şəxslərin sayının isə 488 774 olaraq qeyd edilməsi baxımından sosial müdafiə ilə əhatə olunma dərəcəsini 97,03 faiz olaraq hesablaya bilərik ki, bu da BƏT-in açıqladığı göstəriciyə yaxın olmaqla metodoloji yanaşmanın doğru olduğunu və bu yanaşmanın həmçinin idarəetmə səviyyəsində növbəti təhlillərin aparılması üçün də imkanlar mahiyyəti kəsb etdiyini deməyə əsas verir.

Doğrudur, əlillik göstəricilərinin azalması ilə bağlı digər bir tərəfdən qeyd etmək lazımdır ki, 2007-2019-cu illərdə ilk dəfə əlilliyi müəyyən edilmiş şəxslərin sayında 18 yaşınadək şəxslər üzrə orta illik göstərici 7,7 min nəfər, 18 yaşdan yuxarı şəxslər üzrə isə təqribən 23,7 min nəfər olmuş, 2020-ci illərdə bu göstəricilərin ən aşağı səviyyə düşməsinə (müvafiq olaraq – 3,8 min nəfər və 9,7 min nəfər) baxmayaraq, sonrakı dövrdə dinamik şəkildə artmaqla 2023-cü ildə müvafiq olaraq 4,8 min nəfərə və 20,3 min nəfərədək yüksəlmişdir. Bu isə belə bir mülahizə irəli sürməyə əsas verir ki, məlum olduğu kimi, son yaxın illərdə əlillik təyinatlarının yoxlanılması ilə bağlı intensiv işlər aparılmışdır ki, bunun da təsirini müəyyən müddətli olaraq qeyd edilən göstəricilərdə göstərdiyi ehtimal olunur.

Qlobal miqyasda əlilliyi olan şəxslərin əmək bazarında iştirakının və bu qəbildən sosial həssas əhalinin sosial inkluzivliyinin təmin olunması müasir sosial müdafiə sistemləri qarşısında həlli baxımdan mürəkkəb və aktual əhəmiyyət kəsb etməkdədir.

Bu, özünü ilk növbədə daha çox həmin şəxslərin məşğulluqda daha aşağı payında göstərir. Eyni zamanda sözügedən şəxslərin müxtəlif sosial müavinətlərlə əhatə olunması belə onların ev təsərrüfatında aşağı gəlirlə yaşayışının qarşısını ala bilməməkdədir. Xeyli sayda böyük iqtisadiyyatları üzvlüyündə birləşdirən - İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT/ing. OECD) son 15 ildə göstərdiyi səylərin də əlilliyi olan şəxslərin məşğulluq və yoxsulluq problemlərinin önünə keçə bilməmişdir. İƏİT üzrə əlilliyi olan şəxslərin yalnız 40 faizinin işlə təmin oluna bildiyi qeyd olunur (Disability, work and inclusion, 2022, s.30).

Bu reallıq məsələnin ölkəmizin sosial müdafiə modeli çərçivəsində də xüsusi olaraq diqqətə alınmasının əhəmiyyətinə işarə edir. Eyni zamanda adıçəkilən təşkilat səviyyəsində əlilliyi olan şəxslərlə bağlı sosial müdafiənin problemlərinin araşdırıldığı hesabatda verilən məlumatlar ölkəmiz kontekstindən xüsusi təcrübə mənbəyi olaraq bu sahədə beynəlxalq səviyyədə aktual problemləri və mübarizə tədbirlərinin mənzərəsini formalaşdırmaqda istifadə baxımından əhəmiyyətlidir. Həmin məlumatda əlilliyi olan şəxslərin əmək fəaliyyəti ilə bağlı təhlil edilən istiqamətlər və açıqlanılan statistik məsələlər Azərbaycan timsalında da daha geniş təhlillər üçün mənbə əhəmiyyətlidir. Bununla

belə, ölkədə əlilliyi olan şəxslərin müdafiəsi ilə bağlı statistika çeşidliyinin əhatəli olmaması sahənin tədqiqi ilə bağlı çətinlik yaradan məsələlərin digər bir tərəfini əks etdirir.

Bu mənada əlilliyi olan şəxslərlə bağlı sosial müdafiənin vəziyyətinin qiymətləndirilməsinə yanaşdıqda qeyd olunmalıdır ki, Azərbaycanda əlilliyi olan şəxslərin sayının ümumi əhalinin sayında payı göstəricisi dünyanın müxtəlif arealları üzrə orta göstəricilərlə müqayisədə kifayət qədər kiçik olması ilə diqqəti cəlb edir.

Dünya Səhiyyə Təşkilatının məlumatına əsasən, 2020-ci ildə qlobal miqyasda əlilliyi olan şəxslərin sayı dünya əhalisinin təqribən 16 faizini təşkil etmişdir (World Health Organization, 2010).

Rəsmi statistik məlumatlara əsasən hesablamaq olur ki, 2024-cü ilin əvvəlinə Azərbaycanda əlilliyi olan şəxslərin sayı təqribən 4,95 faiz (503 685/10 180 800*100) təşkil etmişdir ki (Səhiyyə, sosial müdafiə, idman; Əhali-Azərbaycanən Demoqrafik Göstəriciləri). Bu isə qlobal orta göstərici ilə müqayisədə xeyli aşağıdır.

Belə ki, 2016-2019-cü illərdə İƏİT üzrə müxtəlif ölkələrdə 15-69 yaş aralığında olan əlilliyi olan şəxslərin əhalinin ümumi sayında payı üzrə orta göstərici 15 faizdən yuxarıdır. Bu çərçivədə ən yuxarı göstərici olaraq, Latviyada – 25 faizdən yuxarı, əksər ölkələr üzrə - orta göstəricidən (15 faiz) çox olmaqla 25 faizədək, qalan daha az sayda ölkə üzrə isə 15 faizədək dəyişən göstəricilər, yalnız bir halda 5 faizədək göstərici müşahidə edilməkdədir (Disability, work and inclusion, 2022, s.33).

Bu kimi səbəblərdən irəli gəlməklə nəticə etibarilə ən azından bir sosial müdafiə ödənişi (səhiyyə istisna olmaqla) ilə əhatə olunma baxımından ilk növbədə bir çox postsovet ölkələri ilə müqayisədə arzuolunan səviyyədə göstərici (yuxarıda qeyd edildiyi kimi, BƏT tərəfindən bu göstərici - 35,2 faiz qeyd olunmaqla) əldə oluna bilinməməkdədir.

Beləliklə, mövzu çərçivəsində təhlil obyektinə alınan istiqamətlər üzrə əldə olunan ilkin çıxarışlardan belə bir nəticəyə gəlmək olur ki, Azərbaycanda sosial müdafiənin mühüm mexanizmlərindən biri kimi, əlilliyi olan şəxslərin sosial müdafiəsinin təkmilləşdirilməsi istiqamətində təhlillərin dərinləşdirilməsi kifayət qədər aktual məsələlərdəndir.

## NƏTİCƏ

Azərbaycanda sosial müdafiənin təkmilləşdirilməsinin tərəfimizdən qeyd olunan aspektləri üzərində, hesab edirik ki, sosial müdafiənin nəticəliliyi baxımından əhəmiyyətli hesab etdiyimiz resurs-xərc və sosial əhatəlilik dairəsinin daha da genişləndirilməsi istiqamətlərində fəaliyyətin gücləndirilməsi müsbət sistemli nəticələr verə bilər. Sosial müdafiədə əhatəliliyin təmin olunması - məsələnin əsas tərəfi olsa da, bu zaman əhaliyə transfert edilən sosial ödənişlərin əhalinin rifahında əhəmiyyəti baxımından iqtisadi dəyərinin təmin olunması üçün əlverişli məbləğlərlə ifadə edilməsi də digər problemin digər bir idarəetmə istiqamətini təşkil etməkdədir.

Bu baxımdan Azərbaycanda müasir şəraitdə ölkədə növbəti inkişaf dövrünə münasibətdə sosial müdafiənin gücləndirilməsi üçün idarəetmə səviyyəsində "zəif" həlqələrin və ya boşluqların müəyyən edildiyi istiqamətlərə yönəldilməklə maliyyə-resurs və təşkilati tədbirlərin həyata keçirilməsinin komplekslilik və nəticəlilik prinsipilə proqnozlaşdırılmaqla optimal əsaslar üzərində işlənilməsinin strateji meyarlar olaraq rəhbər tutulması prospektiv olaraq şərtləndirilməkdədir.

## ƏDƏBİYYAT SİYAHISI:


Disability, work and inclusion. (2022). https://doi.org/10.1787/1eaa5e9c-en (Müraciət tarixi: 05.03.2025)

Dövlət sosial müdafiə fondunun 2025-ci il üçün büdcə layihəsinə Azərbaycan Respublikası Hesablama Palatasının Rəyi. (2024). *AZƏRBAYCAN RESPUBLİKASI HESABLAMA PALATASI*. 20.02 2025, https://sai.gov.az/files/DSMF_Rey_2025_-568171727.pdf

*Əhali-Azərbaycanən demoqrafik göstəriciləri: Əhalinin sayının dəyişməsi*. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. 15.03.2025, https://www.stat.gov.az/source/demoqraphy/
*İndeksləşdirmə əsasında artım gələn ilin əvvəlindən bütün pensiyalara şamil olunacaq*. (16.12.2022). Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi. (Müraciət tarixi: 05.03.2025, from https://sosial.gov.az/media/xeberler/Indeksleshdirme-esasinda-artim-gelen-ilin-evvelinden-butun-pensiyalara-shamil-olunacaq_638218?hl=az
Kangasniemi, M., Bhalla, G., Knowles, M., Pereira, K. C., & Gentilini, U. (2025). The role of social protection in achieving resilient and inclusive rural transformation. Global Food Security, 44, 100836. https://doi.org/10.1016/j.gfs.2025.100836 (**SCOPUS** bazası).
Səhiyyə, sosial müdafiə, idman: Sosial müdafiə - Əhali arasında əlillik- Əlilliyi olan şəxslərin sayı. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. 17.03.2025, https://www.stat.gov.az/source/healthcare/
UNICEF. https://www.unicef.org/azerbaijan/media/4316/file/2023%20Budget%20Brief%20.pdf (Müraciət tarixi: 14.03.2025)
Universal Social Protection: Universal pensions in Azerbaijan. In https://www.social-protection.org/gimi/ShowMainPage.action. International Labour Organization. https://www.social-protection.org/gimi/gess/Media.action;jsessionid=56GEXRFDpz1LYid1AoHKFaUnYXNRq2yp45riyCgMkpNul4dbBO_R!-1949509354?id=15663
World Health Organization: WHO. (2020, January 27). *Disability*. https://www.who.int/health-topics/disability#tab=tab_1 (Müraciət tarixi: 14.03.2025)
World Social Protection Report 2024-26: Universal social protection for climate action and a just transition. (2024). In International Labour Organization. Publications Production and Publishing Management Unit (PRODOC) of the ILO. (Müraciət tarixi: 13.03.2025), https://www.ilo.org/sites/default/files/2024-09/WSPR_2024_EN_WEB_1.pdf

## ABSTRACT

## ACTUAL-STRATEGIC ISSUES OF THE ORGANIZATION OF THE POPULATION'S SOCIAL PROTECTION IN THE REPUBLIC OF AZERBAIJAN

**Emin Alirzayev**

**The purpose of the study** is to scientifically substantiate the key issues for improvement in the specific areas that form the basis of social protection in the context of scientific analysis of the current problem areas related to the improvement of social protection in the Republic of Azerbaijan from a strategic perspective, reflecting the current aspects and criteria for improvement in specific areas that form the basis of social protection.
**The methodology of the study** is based on the use of general scientific analysis methods with the necessary application of quantitative methods on the relevant national regulatory framework, international reporting indicators and data in the field, theoretical and scientific views at the international level and official statistical indicators.
**The results of the study** reflect the directions considered necessary to improve the main mechanisms of the social protection system in Azerbaijan in modern conditions.
**The applied significance of the study** is that the results obtained within the framework of the study provide current management contours for improving social protection reforms in Azerbaijan in the most important directions in the next perspective.
**The originality and scientific novelty of the research** is the consideration of the current problems and aspects related to the organization of social protection for the further effective development of the social protection model of the Republic of Azerbaijan, based on the principles, the determination of the main

directions that have been demonstrated in practice, the main criteria for improvement, and the provision of a strategic approach map of the regulatory elements that we consider necessary to include social protection as an object of reform in local conditions.

**Keywords:** *social protection, organization of social protection, improvement of social protection, social protection mechanisms, priorities in social protection.*

## АННОТАЦИЯ

## АКТУАЛЬНО-СТРАТЕГИЧЕСКИЕ ВОПРОСЫ ОРГАНИЗАЦИИ СОЦИАЛЬНОЙ ЗАЩИТЫ НАСЕЛЕНИЯ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

**Эмин Ализраев.**

**Целью исследования** является научное обоснование ключевых вопросов совершенствования с точки зрения современных аспектов и критериев в конкретных областях, составляющих основу социальной защиты, в контексте научного анализа современных проблемных областей, связанных с совершенствованием социальной защиты в Азербайджанской Республике со стратегической точки зрения.

**Методология исследования** основана на использовании общенаучных методов анализа с обязательным применением количественных методов на соответствующей национальной нормативной базе, международных отчетных показателях и данных в данной области, теоретических и научных взглядах на международном уровне, официальных статистических показателях.

**Результаты исследования** отражают направления, считающиеся необходимыми для совершенствования основных механизмов системы социальной защиты в Азербайджане в современных условиях.

**Прикладная значимость исследования** заключается в том, что полученные в рамках исследования результаты дают актуальные управленческие контуры для совершенствования реформ социальной защиты в Азербайджане по наиболее важным направлениям в будущем.

**Оригинальность и научная новизна исследования** основана на обосновании актуальных проблем и аспектах, связанных с ее организацией для дальнейшего эффективного развития модели социальной защиты на примере модели социальной защиты Азербайджанской Республики, основных направлений, проявивших себя на практике, выявлении основных критериев совершенствования, а также с этой целью в стратегическом подходе дано отображение регуляторных элементов, которые мы считаем необходимыми для реформирования социальной защиты в местных условиях.

**Ключевые слова:** социальная защита, организация социальной защиты, совершенствование социальной защиты, механизмы социальной защиты, приоритеты в социальной защите.